**Təhsil Proqramının təlim nəticələri**
**“Fizika müəllimliyi”**

- Azərbaycan dilində  və xarici dildə ünsiyyət qurur, müzakirələr aparır, Azərbaycan tarixi, ədəbiyyatı, mədəniyyəti, insan haqq və hüquqlarına dair biliklərə sahib olduğunu nümayiş etdirir.

- Peşəsi ilə əlaqədar Riyaziyyat, İnformasiya və kommunikasiya texnologiyalarından (İKT) səmərəli şəkildə istifadə edir.

- Peşə etikasına uyğun davranır və sosial həyat bacarıqlarına sahib olduğunu nümayiş etdirir.

- Sağlamlıq və təhlükəsizliyi, mənəvi, psixoloji, fiziki sağlamlığın qorunması qaydalarına əməl edir.

- Pedaqoji və psixoloji fəaliyyətin həyata keçirilməsi, tədrisdə düzgün təlim metodikasının və qiymətləndirmə prosedurlarının müəyyən edilməsi ilə əlaqədar xüsusi biliklərə malik olduğunu nümayiş etdirir.

- Təlim və tərbiyə prosesinin və valideyn və onu əvəzedənlərlə əməkdaşlığın həyata keçirilməsinə, öyrənmə fəaliyyəti üçün münbit şəraitin yaradılmasına dair biliklərə malik olduğunu nümayiş etdirir.

- Təlimi planlaşdırarkən, qiymətləndirmə vasitələri seçərkən və ya təhsil proqramına sonradan hər hansı bir düzəliş edərkən xüsusi qayğıya ehtiyacı olan təhsilalanların ehtiyaclarını nəzərə alır.

- Fizika fənnin ayrı-ayrı bölmələrinin əsas xüsusiyyətlərini tətbiq etməyi bacarır, fizika fənnin kurikulumuna uyğun olaraq dərs planlarının portfellərini hazırlaya bilir.

- Fizika fənnin tədrisində mövzular üzrə səmərəli, fəallaşdırıcı və qiymətləndirici dərslər təşkil edə bilir.

- Fizika üzrə müxtəlif layihələrin təşkil olunması və həyata keçirilməsi zamanı təşəbbüskar, məsuliyyət, liderlik və komandada işləmək bacarıqları nümayiş etdirir.